**UOT 75**
**https://doi.org/10.59849/2311-8482.2025.1.299**

**FAZİL ƏSƏDOV***

# AZƏRBAYCANDA VİOLONÇEL VƏ KONTRABAS MƏKTƏBİNİN YARANMASINDA İFAÇILARIN ROLU

*Təqdim olunan məqalədə Azərbaycan musiqisində özünəməxsus yeri olan violonçel və kontrabas ifaçılarının rolundan bəhs olunur. Bu alətlərlə bağlı elmi-işlərin sayı kifayət qədər olmadığından bu sahəyə bu gün də ehtiyac duyulur. Bu alətlərin araşdırılması nəticəsində yeni mövzuların yaranması, təbii ki, yeni ifa üslublarının da yaranması deməkdir.*

*Azərbaycanda bir neçə nəsil violonçel və kontrabas ifaçıları ərsiyə gəlib və ifaçılıq ənənələrini yaradıblar. Bu alətlər həmin dövrdən başlayaraq tədricən öz təşəkkülünü violonçel aləti üzrə S.Əliyev, Y.Abdullayev, R.Abdullayev, E.İsgəndərov, N.Abbaszadə, kontrabas aləti üzrə İ.Huseynov, Ə.Əliyev, R.Heydərov, R.Hacıyev və s. ifaçılığı sahəsində tapmışdır. Müasir violonçel və kontrabas metodikasına əsaslanan bu yetirmələr demək olar ki, bütün konsert proqramlarında zəngin və professional ifaçılıq mədəniyyətini fəxrlə nümayiş etdirmişlər. XX əsrdən başlayaraq Azərbaycanda bu sənətin inkişaf etməsi öz əhəmiyyəti baxımından sonrakı nəsil violonçel və kontrabas ifaçılığına mühüm təsirini göstərmişdir.*

***Açar sözlər:*** *Azərbaycan, violonçel, kontrabas, orkestr, musiqi*

## Giriş

Azərbaycan musiqisində akademik Ü.Hacıbəylinin səyləri nəticəsində formalaşmağa başlayan violonçel və kontrabas ifaçılıq mədəniyyətinin inkişafında dahi sənətkarın Bakıya dəvət etdiyi Qərbi Avropa və rus musiqi ifaçıları böyük rol oynamışlar. XX əsrin əvvəllərində dahi Ü.Hacıbəyli professional ifaçılıq məktəbinin inkişaf etdirilməsi ilə əlaqədar olaraq Azərbaycana bir çox peşəkar ifaçıları dəvət edir. Azərbaycana dəvət olunan musiqiçilər arasında Rusiyanın əməkdar artisti, Azərbaycan konservatoriyasının professoru, məşhur violonçel ifaçısı, Leopold Rostropoviç də olmuşdur. O, 1925-1931-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasının professoru vəzifəsində və Azərbaycan Dövlət Simfonik orkestrində çalışır. O, Azərbaycanda ilk simli kvarteti yaratmışdır. Qeyd etmək vacibdir ki, onun yetirməsi A.Zeynallı bəstəkarlıqla yanaşı ölkəmizdə ilk təhsilli violonçel ifaçısı olmuşdur.

## Əsas məzmun

Məhz bu dövrdə dahi Üzeyir bəyin təşəbbüsü ilə Azərbaycan Dövlət Konservatoriyasında müəllim vəzifəsində çalışmağa V.S.Anşeleviç dəvət alır. Azərbaycan Dövlət Konservatoriyasında fəaliyyətə başlayan V.S.Anşeleviç eyni zamanda onillik musiqi məktəbində (indiki Bülbül adına musiqi məktəbi), Azərbaycan Dövlət simfonik orkestrində, Opera və Balet teatrının simfonik orkestrində çalışmışdır. O, Azərbaycan ifaçılıq məktəbinin yaranmasına təkan verən şəxsiyyətlərdəndir. Görkəmli musiqiçi 1958-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının dosenti elmi adına, 1972-ci ildə isə Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür. V.S.Anşeleviç Azərbaycanda 1936-1992-ci illərdə fəaliyyət göstərmişdir.

Azərbaycanda ifaçılıq fəaliyyəti ilə mühüm işlər görmüş digər bir violonçel ifaçısı A. Neyman olmuşdur. A.Neyman 1927-ci ildə Bakı şəhərində anadan olmuşdur. İstedadlı musiqiçi A.Neyman 1944-cü ildə Azərbaycan Dövlət Konservatoriyasına, V.S.Anşeleviçin sinfinə qəbul olur və ali təhsil ocağını 1949-cu ildə uğurla tamamlayır. A.Neyman 1946-1964-cü illər ərzində dünya şöhrətli maestro Niyazinin rəhbərliyi ilə Azərbaycan Dövlət simfonik orkestrinin tərkibində işləmişdir. 1982-ci ildə A.X.Neyman dosent, 1993-cü ildə isə professor adını almışdır. Sabir Əliyev (09.05.1928, Bakı - 26.10.1983, Bakı) – milli violonçel ifaçılıq sənətinin ən parlaq nümayəndəsidir. O, ifaçı, solist və Azərbaycan Dövlət simli kvartetinin aparıcı musiqiçisi olmuşdur. Sabir Əliyev 1957-ci ildə simli kvartetin heyətində Moskvada keçirilən gənclərin və tələbələrin Ümumittifaq festivalının (qızıl medal), VI Beynəlxalq Festivalın (gümüş medal) laureatı olmuşdur. S.Əliyev 1951-ci ildən başlayaraq ömrünün sonuna qədər Azərbaycan Dövlət Konservatoriyasında müəllim, 1960-cı ildən simli alətlər kafedrasının müdiri vəzifəsində çalışıb. Sabir Əliyev professor, 1959-cu ildə Azərbaycan

Respublikasının əməkdar artisti, 1972-ci ildə isə xalq artisti adına layiq görülüb.

Azərbaycan Respublikasının əməkdar artist, professor Y,Abdullayevin Azərbaycan klassik ifaçılıq mədəniyyətinin inkişafında böyük rolu olmuşdur. O, 1952-1963-cü illər ərzində Bülbül adına orta ixtisas musiqi məktəbində, violonçel ixtisası üzrə S.Əliyevin sinfində təhsil almışdır. 1963-cü ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına daxil olmuşdur. Y.Abdullayev 1965-ci ildə Azərbaycan Radio və Televiziyasının kamera orkestrinin solisti vəzifəsinə təyin edilir. O, Azərbaycan Dövlət Konservatoriyasında violonçel ixtisası üzrə müəllim olaraq çalışmışdır. Y.Abdullayev 2001-ci ildə Bakıda vəfat etmişdir.

Görkəmli violonçel ifaçısı, pedaqoq, orkestr solisti R.Abdullayev 1951-1962-ci illərdə Bülbül adına orta ixtisas musiqi məktəbində, 1962-1967-ci illərdə isə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında violonçel ixtisası üzrə professor S.Əliyevin sinfində təhsil almışdır. 1968-1969-cu illərdə R.Abdullayev P.İ.Çaykovski adına MDK-nın aspiranturasında dünya şöhrətli əfsanəvi musiqiçi, Mstislav Rostropoviçin sinfində violonçel ixtisası üzrə təhsil almışdır. 1970-ci ildən 2010-cu ilə qədər istedadlı musiqiçi M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının simfonik orkestrində çalışmışdır. 1979–cu ildə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında pedaqoji fəaliyyətinə davam etmişdir. 1994-cü ildə Azərbaycan Respublikasının əməkdar artisti, 2005-ci ildə isə Azərbaycan Respublikasının xalq artisti adına layiq görülmüşdür

Azərbaycan Respublikasının Xalq artisti Eldar İsgəndərov 1957-1968-ci illərdə Bülbül adına orta ixtisas musiqi məktəbində violonçel ixtisası üzrə əvvəl V.Anşeleviçin, iki ildən sonra İ.Turiçin sinfində təhsil almışdır. İ.Turiçin vəfatından sonra S.Əliyev Eldar İsgəndərovun ixtisas üzrə müəllimi təyin edilmişdir. 1968-1973-cü illər ərzində o, Azərbaycan Dövlət Konservatoriyasında S.Əliyevin sinfində təhsilini davam etmişdir. 1973-cü ildə istedadlı ifaçı M.F.Axundov adına Opera və Balet Teatrının simfonik orkestrində çalışmışdır. Eldar İsgəndərov 1991-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti, 2005-ci ildə isə xalq artisti adına layiq görülmüşdür.Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, professor Nəzmiyyə xanım Abbaszadənin milli violonçel ifaçılıq məktəbinin inkişafında və zənginləşməsində mühüm rolu olmuşdur. 1970-1973-cü illər ərzində P.İ.Çaykovski adına MDK-da assistent-stajorluq üzrə təhsilini bitirən N.Abbaszadə Bakıya qayıdandan sonra "Simli alətlər" kafedrasında çalışır. N.Abbaszadə şərqdə ilk xanım violonçel ifaçısı və ilk simli qadın kvartetinin təşəbbüskarı və solisti kimi milli ifaçılıq incəsənətinə şərəflə daxil edilmişdir. Azərbaycanda XX əsrdə kontrabas sənətində irəli çıxan bir sıra gözəl musiqiçi və pedaqoqların parlaq istedadı və böyük əməyi sayəsində kontrabas aləti də başqa kamanlı alətlərin səviyyəsinə yüksəlir və kontrabas sənətinin peşəkar ənənələri Azərbaycanda bir çox musiqiçilər tərəfindən inkişaf etdirilir. Azərbaycanda kontrabas məktəbinin əsasını qoyan XX əsrin əvvəllərində yaşamış görkəmli kontrabas ifaçısı İqnati Qriqoryeviç Solodçenko olmuşdur. O, 1920-ci ildə Bakıya köçərək, 10 il ərzində Azərbaycan Konservatoriyasında kontrabas sinfinə rəhbərlik edir. Eyni zamanda İ.Q.Solodçenko Bakı Opera Teatrının kontrabasçıları qrupunun konsertmeysteri işləyir və solo konsertlərlə çıxışlar edir. İ.Q.Solodçenko Bakıdan köçəndən sonra Konservatoriyadakı kontrabas sinfinə M.M.Çudnovski rəhbərlik edir.

1950-ci illərdə Bakıda məşhur kontrabas ifaçısı İlyas Huseyn oğlu Hüseynov fəaliyyət ğöstərir. O, 22 sentyabr 1924-cü ildə Bakıda doğulmuşdur. 10 yaşında ikən V.S.Ançeleviçdən violonçel ixtisası üzrə dərslər alır. 1947-ci ildə müharibədən qayıtdıqdan sonra o da bir çox violonçel çalanlar kimi kontrabas ifaçılığına keçir. Onunla Bakı Konserbatoriyasında M.M.Sidnovski məşğul olur, onun ölümündən sonra isə (1952) professor İ.M.Turiçinin rəhbərliyi altında kursu bitirir. Həmin dövrdən İ.Hüseynov Bakı flarmoniyasının simfonik orkestrinin kontrabas qrupunun konsertmeysteri işləyir və konservatoriyada dərs deyir. Bununla yanaşı o, kamera ansambllarında da iştirak edir. Milli kadrların yetişdirilməsi, Azərbaycan kontrabas məktəbinin inkişaf etdirilməsindəki xidmətlərinə görə İ.H.Huseynova əməkdar artist və Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının professoru adı verilmişdir. Onun ən yaxşı tələbələrindən biri R.Komaçkov olmuşdur.

R.Komaçkov – Dövlət Akademik simfonik orkestrinin solisti, Rusiyanın əməkdar artisti, Azərbaycan kontrabas məktəbinin parlaq nümayəndəsidir. Solo fəaliyyətində nümayiş etdirdiyi istedad R.Komaçkovu müasir ifaçılıq sənətinin zirvəsinə yüksəltmişdir. Konservatoriyanın ən

parlaq məzunlarından olan R.Komaçkov öz yaradıcılıq fəaliyyətinə Bakı Filarmoniyasının simfonik orkestrində başlayır. Azərbaycan Dövlət Kamera Orkestri təşkil olunarkən, onu orkestrin solisti vəzifəsi təklif edilir. Orkestrdə işləyən zaman R.Komaçkov müxtəlif ansambllarda iştirak edərək solo fəaliyyətini davam etdirir.

Sergey Şimelov – Azərbaycan kontrabas məktəbinin daha bir parlaq nümayəndəsidir. Uşaq yaşlarında o, violonçel çalmış, konservatoriyaya isə İ.Hüseynovun kontrabas sinfinə daxil olmuşdur. Gözəl violonçel bazasına malik olması sayəsində Şimelov tez bir vaxtda əla kontrabas ifaçısı kimi inkişaf edir. Konservatoriyanı bitirdikdən sonra Şimelov Bakı filarmoniyasının simfonik orkestrində musiqiçi kimi fəaliyyətə başlayır. Sonra Q.Qarayev adına kamera orkestrinə keçərək uzun müddət bu orkestrin solisti işləyir. Şimelovun solo fəaliyyəti hələ konservatoriyada təhsil aldığı illərdə başlanır. Əli Əliyev – Bülbül adına orta ixtisas musiqi məktəbinin violonçel sinfini bitirdikdən sonra ko nservatoriyada İ.Hüseynovun rəhbərlik etdiyi kontrabas sinfinə daxil olur. Konservatoriyanı müvəffəqiyyətlə bitirən Ə.Əliyev Q.Qarayev adına Azərbaycan Dövlət kamera orkestrində çalışmağa başlayır. Musiqi ifaçılarının dördüncü Zaqafqaziya müsabiqəsində mükafat alaraq laureat olur. Hazırda Ə.Əliyev Türkiyənin İzmir opera və balet teatrında çalışaraq kontrabasçılar qrupuna rəhbərlik edir.

Rasim Heydərov – Bülbül adına orta ixtisas musiqi məktəbini violonçel sinfi üzrə bitirib. Konservatoriyada isə İ.Hüseynovun kontrabas sinfinə daxil olur. Konservatoriyanı bitirdikdən sonra o, Dövlət radio və televiziyasının orkestrində kontrabasçılar qrupunun konsertmeysteri kimi çalışır. Sonradan o, Q.Qarayev adına kamera orkestrinə keçir. 1992-97-ci illərdə Türkiyənin Ankara Opera və Balet Teatrında işləyir. Bakıya qayıtdıqdan sonra o, Filarmoniyanın simfonik orkestrində kontrabasçılar qrupuna rəhbərlik edir. Orkestrdəki işi ilə yanaşı Heydərov Bakı Musiqi Akademiyasında pedaqoji fəaliyyətlə də məşğul olur.

**Nəticə**

Rafael Hacıyev – ilk kontrabas dərslərini musiqi məktəbində almışdır. O, A.Zeynallı adına musiqi məktəbində, sonra isə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında, İ.Hüseynovun sinfinə daxil olaraq təhsilini davam etdirmişdir. Konservatoriyanı bitirdikdən sonra R.Hacıyev Dövlət radio və televiziyasının orkestrində kontrabasçılar qrupunun konsertmeysteri vəzifəsində çalışır. Sonra üzün müddət Sumqayıt musiqi məktəbində pedaqoji fəaliyyətlə məşğul olur. 1992-ci ildən R.Hacıyev Türkiyədə işləyir.

## ƏDƏBİYYAT

1.İ.Hüseynova. XX əsrin əvvəlində Azərbaycanda musiqi təhsilinin təşəkkülündə Rus pedaqogikasının rolu. "Konservatoriya" jurnalı 2021 №3 (52)

2.Л.Витольдович-виолончелист,профессор Бакинской консерватории

3.Струве Б.А. Пути начального развития юных скрипачей и виолончелистов. Музгиз. Ленинградское отделения, 1937

4.Rafail Hacıyev. "Kontrabasda ifa metodikasının əsasları" Bakı-2003

***Naxçıvan Dövlət**
**Universiteti**
***E-mail: esedovfazil8@gmail.com***

**Fazil Asadov**

## THE ROLE OF PERFORMERS İN THE ESTABLİSHMENT OF THE CELLO AND DOUBLE BASS SCHOOL İN AZERBAİJAN

The presented article talks about the role of cello and double bass players, who have a special place in Azerbaijani music. Since the number of scientific works related to these tools is not enough, this field is still needed today. As a result of researching these instruments, the emergence of new

themes means the emergence of new performance styles.

In Azerbaijan, several generations of cello and double bass players came to the throne and created their performance traditions. Starting from that period, these instruments were gradually formed by S.Aliyev, Y.Abdullayev, R.Abdullayev, E.Isgandarov, N.Abbaszade on the cello instrument, I.Huseynov, A.Aliyev, R.Heydarov, R.Hajiyev on the double bass instrument. etc. found in the field of performance. Based on modern cello and contrabass methodology, these students have proudly demonstrated their rich and professional performance culture in almost all concert programs. The development of this art in Azerbaijan since the 20th century has had an important impact on the next generation of cello and double bass playing in terms of its importance.

**Keywords:** *Azerbaijan, cello, double bass, orchestra, music*

**Фазил Асадов**

**РОЛЬ ИСПОЛНИТЕЛЕЙ В СОЗДАНИИ ШКОЛЫ ИГРЫ НА ВИОЛОНЧЕЛИ И КОНТРАБАСЕ В АЗЕРБАЙДЖАНЕ**

В представленной статье говорится о роли виолончелистов и контрабасистов, занимающих особое место в азербайджанской музыке. Поскольку количество научных работ, посвященных этим инструментам, недостаточно, эта область востребована и сегодня. В результате исследования этих инструментов появление новых тем означает появление новых стилей исполнения.

В Азербайджане несколько поколений виолончелистов и контрабасистов пришли к власти и создали свои исполнительские традиции. Начиная с этого периода, эти инструменты постепенно формировали С.Алиев, Ю.Абдуллаев, Р.Абдуллаев, Э.Искендеров, Н.Аббасзаде на виолончели, И.Гусейнов, А.Алиев, Р.Гейдаров, Р.Гаджиев. на контрабасе и т. д. встречается в сфере перформанса. Основываясь на современной методике игры на виолончели и контрабасе, эти студенты с гордостью продемонстрировали свою богатую и профессиональную исполнительскую культуру практически во всех концертных программах. Развитие этого искусства в Азербайджане с 20-го века оказало важное влияние на следующее поколение игры на виолончели и контрабасе с точки зрения ее важности.

**Ключевые слова:** *Азербайджан, виолончель, контрабас, оркестр, музыка.*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 12.01.2025**
**Son daxilolma tarixi:11.02.2025**